# Şuşa Bəyannaməsi – müttəfiqliyimizi rəsmiləşdirən tarixi sənəd



***Fevralın 1-də Azərbaycan Respubikasının Milli Məclisində Şuşa Bəyannaməsi təsdiq edildi. Parlamentin həmin gün keçirilən plenar iclasında "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi məsələsi müzakirəyə çıxarılaraq ilk oxunuşda qəbul edildi.***

Bu, Şuşa Bəyannaməsinin ölkəmiz və bütövlükdə Türk dünyası üçün nə qədər önəmli məsələ olduğunu bir daha təsdiqlədi. Milli Məclisin Sədri Sahibə Qafarovanın qeyd etdiyi kimi, biz – VII çağırış Milli Məclis üzvləri çox xoşbəxtik ki, Şuşa Bəyannaməsini təsdiqləmək bizə nəsib oldu. Bütün deputatlar bu ratifikasiyanı sevinclə, alqışlarla qarşıladılar.

**(ardı 8-ci səhifədə)**

Xalq qəzeti .- 2022.- 3 fevral.- S.1;8.

# Şuşa Bəyannaməsi – müttəfiqliyimizi rəsmiləşdirən tarixi sənəd

**(əvvəli 1-ci səhifədə)**




Ümumiyyətlə, Şuşa Bəyannaməsinin imzalanması region üçün çox böyük geosiyasi hadisədir. 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşada imzalanmış bu tarixi sənəd ölkələrimizin qardaşlığının, dostluğunun və birliyinin əyani təcəssümüdür. Bu bəyannamənin Qars müqaviləsinin xələfi, məntiqi nəticəsi və inkişafı kimi qəbul edənlər də var. Əsas odur ki, iki dövlət və bir millət dostluq və qardaşlıqdan çıxış edərək ölkələrimizin münasibətlərini keyfiyyətcə yeni mərhələyə, müttəfiqlik səviyyəsinə qaldırır və hər an bir-birinin yanında olduğunu birbaşa olaraq təsdiqləyirlər. Bəyannamə ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsindən irəli gələrək xalqlarımızın birliyini, ortaq milli-mənəvi dəyərlərini əks etdirir.

Biz Vətən müharibəsində şanlı Qələbə qazanmışıq. Bu qələbə son iki yüz ildə baş vermiş Azərbaycan dövlətinin, ordusunun, xalqının düşmən üzərində ən böyük nailiyyətidir – desək yanılmarıq. Bu gün hər kəs dərk edir ki, Vətən müharibəsində qəhrəman ordumuzun Ermənistana vurduğu zərbələr o qədər sarsıdıcı oldu ki, noyabrın 10-da artıq düşmən tərəfi kapitulyasiya sənədini imzalamağa məcbur oldu. Onlar yaxşı dərk edirdilər ki, əgər müharibə dayanmasa, Azərbaycan Ordusunun qarşısında tab gətirmək mümkün olmayacaq. Bu qələbə həm də işğalçı ölkənin tənəzzülünü labüdləşdirdi.

Əlbəttə, biz dövlət olaraq, Ermənistana sülh əlini uzatmağa hazır olduğumuzu bəyan etmişik. Lakin bu ölkədə olan bir sıra revanşist qüvvələr münasibətlərin regional əməkdaşlıq müstəvisində inkişaf etməsində, öz ölkələrinin bu xaosdan, iqtisadi bataqlıqdan çıxmasında maraqlı deyillər. Onlar hər vəchlə çalışırlar ki, öz xalqları aclıq, səfalər, xarici ölkələrə köç vəziyyətində yaşasınlar.

Əlbəttə, bu qüvvələr psevdopatriot şüarlarla erməni xalqının maraqlarına xidmət etmədiklərini gec-tez anlayacaqlar. Çünki alternativ yolları da yoxdur. Azərbaycan Ordusu elə bir yüksək döyüş hazırlığı və inkişaf səviyyəsindədir ki, Ermənistan tərəfin kiçik ağılsızlığının da onlara necə baha başa gələ biləcəyini yaxşı dərk edirlər. Müharibədə şanlı ordumuz tərəfindən qənimət olaraq ələ keçirilmiş, habelə məhv edilmiş Ermənistan ordusuna məxsus olan silahlar, texnikalar bu gün Bakı şəhərindəki Hərbi Qənimətlər Parkında nümayiş etdirilməsi bunun əyani sübutudur.

Bu gün erməni xalqı ölkələrində baş verənlərdən, sözün həqiqi mənasında təngə gəliblər. Onlar özləri də başa düşürlər ki, revanşist hisslərə qapılmaq böyük itkilərlə nəticələnə bilər. Bunun isə öz növbəsində bir neçə səbəbi var. Birincisi, Ermənistanda baş verən iqtisadi böhran xalqın məişət şəraitini həddindən artıq ağırlaşdırıb və ölkədə baş verən səfalət, gündən-günə artan xarici borc və yoxsulluq nəticəsində insanların güzəranı həddindən artıq pisləşib və yoxsulluq artıb. Amma bütün bunlara baxmayaraq, ABŞ-da və ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən erməni lobbisi və diaspor təşkilatları perspektivdə müzakirə olunan sülhün qarşısını almağa hər vəchlə can atır, inteqrasiya prosesini ləngitməklə revanşizm hissini alovlandırmağa çalışırlar.

Sülhü dünyanın mövcud reallıqları da tələb edir. Başqasının torpağına iddialar etməklə dünyanın tərəqqipərvər qurumları da barışmır. Yəni, inteqrasiya olunmaqdan başqa çarələri olmayan Ermənistandakı məkrli qüvvələr üçün, əslində, bu, bir şansdır. Azərbaycan tərəfindən onlar üçün yaradılmış şansdır. Erməni xalqı lobbi və diasporun onlara uğursuzluq və bədbəxtlik vəd edən tezislərini kənara atmalıdır. Tarix boyu onlara qonşu xalqların ərazilərini istila etməyə şirnikləndirən qüvvələrdən biri də məhz erməni diasporu və lobbi təşkilatları, saxta erməni ziyalıları olmuşlar. Məsələn, keçən ay ABŞ Senatının xarici əlaqələr komitəsində keçirilən 2022-ci maliyyə ili ilə bağlı dinləmələr zamanı bir neçə senator Dövlət Departamentini Azadlığa Dəstək Aktına 907-ci düzəlişi dayandırmaqla Azərbaycanın maraqlarına xidmət edildiyini gündəmə gətirdilər. Qeyri-mütənasib və əsassız mövqe göstərən senatorlar 907-ci düzəlişin qüvvədə saxlanılmasını bildirsələr də, onların bu fikirlərinə, təbii ki, heç bir məhəl qoyulmadı. Baxmayaraq ki, görüşdən əvvəl Amerikanın Erməni Milli Komitəsinin (ANCA) rəhbəri çıxışında bildirmişdi ki, 907-ci düzəliş yenidən qüvvəyə minəcək və "amerikalıların ödədiyi vergidən 1 dolların belə silah alınıb Azərbaycana göndərilməsinə yol verilməyəcək". İrəli sürülən bu əsassız fikirlər təbii ki, qəbul edilə bilməzdi və edilmədi də. Sadəcə, ziddiyyətli fikirlər bəzi erməni diaspor təşkilatlarının sülhün qarşısında ən böyük əngəl olmasını bir daha göstərdi.

Erməni diaspor və lobbi qurumlarının, Ermənistanda revanşist qüvvələrin nə etmək istədiklərindən asılı olmayaraq, bu gün Qarabağda böyük sürətlə abadlıq və bərpa işləri gedir. Təbii ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi əsasında sürətlə aparılan quruculuq siyasəti tezliklə öz bəhrəsini verəcəkdir.

Deyə bilərik ki, Qarabağa yeni nəfəs gəlir və artıq Şuşa şəhəri uzun illərdən sonra yenidən böyük tədbirlərə, festivallara evsahibliyi edir. İnanırıq ki, tezliklə Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcəkdir. Bunun üçün isə ilk növbədə, regionda sülhün, sabitliyin bərqərar olması ən vacib amildir. Təsadüfi deyildir ki, bu il cənab Prezidentin sərəncamına əsasən ölkəmizdə "Şuşa ili" elan edildi. Sərəncamda da deyilir ki, Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmişdir. Bu gün Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın baş planının hazırlanması, Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Əlbəttə, ötən bir il ərzində Şuşada gördüyümüz möhtəşəm tədbirlər bu prosesin lokomativ hissəsinin hələ qarşıda olduğunu sübut etdi. Şuşa bəyannaməsinin də məhz Şuşa ilində Milli Məclis tərəfindən ratifikasiya edilməsinin strateji əhəmiyyəti, üst-üstə düşməsi böyük siyasi əhəmiyyət daşımaqdadır. Bu günümüz və sabahımız üçün strateji əhəmiyyət daşıyan bəyannamə Azərbaycan və Türkiyənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə qarşılıqlı yardım sahəsində əməkdaşlığın prinsipial istiqamətidir.

Bəyannaməyə əsasən, tərəflər xarici siyasət sahəsində əlaqələndirməni və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələri həyata keçirir, həmçinin bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində birgə fəaliyyət göstərirlər. Bundan sonra ölkələrimiz aktual xarakter kəsb edən, beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı daha da dərinləşdirəcəklər. Tərəflər BMT, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla, bundan sonra da beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Bəyannamənin ən diqqətçəkən məqamı da odur ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın qədəri və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək, birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq.

Şuşa Bəyannaməsi ilə həm də Azərbaycanın Qarabağ bölgəsində yaşayacaq əhalinin də təhlükəsizliyi, firavan gələcəyə qovuşması bir daha qarantiya altına alınmış olur.

Bu baxımdan, Şuşa Bəyannaməsinin parlament tərəfindən ratifikasiyası iki qardaş ölkənin hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliyinin rəsmi təminatıdır. Bütövlükdə isə Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyənin strateji müttəfiqlik münasibətlərini daha da dərinləşdirməklə yanaşı, eyni zamanda, bunu üçüncü tərəfə qarşı deyil, sadəcə öz təhlükəsizliyi baxımından zəruri sayır və ölkələrimiz üçün mühüm olacaq qərarların yol xəritəsi hesab edir.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini, parlamentin gənclər və idman komitəsinin sədri***